DOI: 10.36719/AEM/2007-2020/54/122-125

**Kamil Səyavuş oğlu Dəmirli**
Azərbaycan Turizm və Menecment Universiteti
kamildemirli44@gmail.com

# MÜASİR ŞƏRAİTDƏ AZƏRBAYCANIN VALYUTA SİYASƏTİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ VƏZİFƏLƏRİ VƏ İSTİQAMƏTLƏRİ

***Açar sözlər:*** *valyuta siyasəti, əmtəə ticarəti, valyuta ehtiyatları, tədiyə balansı, neft-qaz, saldo, nəqliyyat, tranzit xidmət, beynəlxalq, kapital, perspektivlik*
***Key words:*** *monetary policy, commodity trade foreign exchange reserves, balance of payments, oil and gas, balance, transportation, transit service, international, capital, perspective*
***Ключевые слова:*** *денежно-кредитная политика, товарная торговля, валютные резервы, платежный баланс, нефти и газа, баланс, транспорт, транзитный сервис, международный, капитал, перспектива*

Bazar iqtisadiyyatının tənzimlənməsi sistemində valyuta siyasəti mühüm yer tutur. Valyuta siyasəti ümumdünya təsərrüfat əlaqələri sistemində iqtisadiyyatın daxili və xarici dinamik müvazinətini təmin etmək, beynəlxalq ödəmələri müəyyən bir sistem daxilində yerinə yetirmək və xarici ödaniş balansını tənzimləmək məqsədilə ölkənin cari və strateji məqsədlərinə uyğun olaraq hökümətin həyata keçirdiyi tədbirlərin məcmusudur. Valyuta siyasəti hüquqi cəhətdən valyuta qanunvericiliyinə,yəni ölkədə və onun sərhədləri xaricində valyuta dəyərləri ilə əməliyyatlar aparılması qaydalarını tənzimləyən hüquqi normalar toplusu, habelə valyuta normaları üzrə dövlətlər arasında ikitərəfli və çoxtərəfli müqavilələri rəsmiləşdirilir .

Milli valyuta sistemi – milli qanunvericiliklə müəyyan edilən ayrı-ayrı ölkələrin valyuta münasibətlərinin təşkili formasını ifadə edir. Milli valyuta sistemlərinin asasını dövlətin qanunla müayyən etdiyi milli valyuta taşkil edir. Milli pul beynəlxalq iqtisadi münasibətlərdə istifadə edildikdə valyuta olur.

- Dövlətlərin milli valyuta strategiyaları dedikdə onların daxili valyuta siyasətləri başa düşülür. Dövlətin valyuta siyasəti onun iqtisadi siyasətinin əsas məqsədlərinə nail olmasına yönəldilən siyasətidir. Bu siyasəta iqtisadi artımın davamlılığının təmin edilməsi, işsizliyin və inflyasiyanın artımının qarşısının alınması, tadiyə balansının tarazlığının təmin edilməsi daxildir.
- Azərbaycan Respublikasında valyuta siyasəti sahəsində sərbəst fəaliyyət 1991-ci ildə dövlət müstəqilliyi əldə edildikdən sonra başlanmışdır. Bu məsələ ilə bağlı ilk qərarların qəbulu 1992-ci ilə təsadüf edir. 1993-cü ilin avqust ayında imzalanmış prezident fərmanı ilə manat 1994-cü il yanvarın 1-dan Azərbaycan Respublikası ərazisində yeganə ödaniş vasitasi rolunu yerinə yetirməya başlamışdır (1).

Son 10 ildə ölkə iqtisadiyyatında müşahidə olunan makroiqtisadi sabitlik, xarici ticarət münasibatlərinin dinamik inkişafı və iqtisadi islahatların ardıcıllığı Azərbaycanın başqa ölkələrlə münasibətlərində əlverişli meyllərin formalaşmasını təmin etmişdir. Ortamüddətli perspektivdə də bu meyllərin saxlanması ölkənin tədiyə balansının əsas göstəricilərinin sabit inkişafını qiymətləndirməklə yanaşı, yüksək rəqabət qabilyyətinə malik olan Azərbaycan iqtisadiyyatının DTS-də mövqeyinin daha da gücləndirilməsina imkan verəcəkdir (2).

Əmtəə ticarəti. Xarici ticarat münasibətlərinin inkişaf meylləri bir sıra amillərin təsirini əks etdirir. Bunlardan iqtisadiyyatın əsas ixracat nomenklaturası malların istehsalının həcmini artırmaq imkanlarını, ümumi təlabatın və ümumi təklifin tənzimlənməsi üzrə daxili siyasəti göstarmək olar.

Azərbaycan ixracatının əsas mövqelərinin dünya əmtəə bazarında qiymətlərinin dəyişməsinin uzunmüddətli olmaması və 2004-cü ildən başlayaraq xam neft ixracının sıçrayışlı artımı əmtəə ticarəti balansında müsbət saldonun yaranmasını və onun dinamik olaraq artımını təmin etmişdir.

Araşdırmalar göstərir ki, əmtəə ixracının ortamüddətli inkişaf perspektivləri əsas etibarı ilə Xəzərin Azərbaycan sektorundakı karbohidrogenlərin hasilatının artması və onların xarici ölkələrə ixracını təmin edən nəql yollarının inkişafı ilə bağlıdır. Əsas neft-qaz kəmərlərinin bir qədər gec də olsa işə salınması böyük neft-qaz ixracının intensivləşdirilməsini reallaşdırmış və artıq 10 ildir ki, beynəlxalq neft-qaz sövdələşmələri çərçivəsində Azərbaycan nefti və qazı xarici ölkələrə ixrac olunur. Bu prosesin orta və uzunmüddətli inkişaf perspektivləri dünyanın ən iri layihələrindən olan Şahdaniz-2, TANAP, və 2013-cü ilin 17 oktyabr tarixində Azərbaycan Republikasının Prezidenti İlham Əliyev tərəfindən imzalanmış TAP layihələrinin uğurla yerinə yetirilməsi nəticəsində reallaşacaq.

Azərbaycan ixracatının digər əsas mövqei - qeyri neft-qaz katiqoriysına aid olan kənd və balıqçılıq təsərrüfatının və kimya sənayesi kompleksinin məhsullarıdır. İqtisadiyyatın bu sahələrinin gələcək inkişafı və əmtəə ixracı potesialının artırılması xarici və daxili investisiyaların cəlb edimısindən və xarici bazara

çıxarılması nəzərdə tutulan malların beynəlxalq rəqabətliliyə davamlılığından da xeyli asılı olacağını istisna etmək olmaz (3).

Milli valyutanın məzənnəsinin yaxın gələcəkdə heç bir kəskin dəyişikliyə məruz qalmayacağı ilə yanaşı maşın, avadanlıq və zəruri istehlak mallarına daxili tələbatın yüksək olması gələcəkdə də bu tip əmtəə idxalının artmasını şərtləndirəcək. Maşın və avadanlıqlar başlıca olaraq daxili sərmayələr hesabına müassir infrastruktur lahiyələrinin (nəqliyyat, su, rabitə, turizm və s.) icrası və beynəlxalq neft-qaz layihələri ilə əlaqədar daha çox gətiriləcək və əmtəə idxalının mühüm tərkib hissəsi olacaqdır.

Eyni zamanda qeyd etməliyik ki, ortamüddətli dövrdə idxal ediləcək malların nəzərə çarpacaq hissəsi əvvəlki illərdə olduğu kimi yenə də rezident fiziki şəxslər tərəfindən gətiriləcək və bütövlükdə Azərbaycanın qeyri neft-qaz sektoru üzrə əmtəə ticarəti balansının və xüsusən uzaq xarici ölkələrlə ticərətin mənfi saldosu başlıca olaraq bu cür əmtəə (minik atomobilləri, zəruri ərzaq və digər istehlak malları) idxalının məhz dəyər həcmi ilə əlaqədar olacaq. Azərbaycanın Çin, Türkiyə, Rusiya Fedarasiyası, Almaniya, İran və Birləşmiş Ərəb Əmirlikləri ilə ticarət əlaqələrinin sabitliyi, idxalçılar üçün vergilərdəki fərq və qeyri-ərzaq istehlak malları istehsalının ölkə daxilində hələ ki, ləng inkişafı belə güman etməyə əsas verir ki, ortamüddətli perspektivdə də əmtəə ticarəti dövriyyəsinin nəzərəçarpacaq hissəsi fiziki şəxslərin idxal əməliyyatlarının payına düşəcək .

Bütövlükdə qeyd etmək istərdik ki, Azərbaycan neftinin dünya bazarındakı qiymətinin yaxın gələcəkdə də son 10 ilin orta qiyməti səviyyədə olacağının və əsas ixracat mallarının fiziki həcmlərini, xüsusi ilə qazın ixracının artmasınım labüd nəticəsi kimi ixracatın ümumi dəyərinin və əmtəə ticarati balansının müsbət saldosunun mövcud səviyyəsi qorunub saxlanılacaq (2).

Beynəlxalq xidmətlər. Məlum olduğu kimi, milli iqtisadiyyatların qlobal rəqabətliliyini və ortamüddətli inkişaf perspektivlərini müəyyan edən amillərdən biri də infrastrukturun inkişaf saviyyəsidir, xüsusilə də DTS-nə inteqrasiya kontekstində. Bu amillə bağlı tədiyə balansının göstəricilərinin təhlili göstərir ki, Azərbaycanın DTS-də mövqeinin güclandirilməsində və milli iqtisadiyyatın davamlı va dayanıqlı inkişafında ölkənin beynəlxalq xidmət ticarətinin intensiv inkişafının müstəsna rolu olmuşdur. Belə ki, yalnız son 10 ildə beynəlxalq xidmətlər dövriyyəsinin ümumi dəyəri 64 mlrd.doll. bərabər olmuşdur (3). Avropa ilə Asiya arasında tranzit ərazi kimi respublikanın alverişli geosiyasi və coğrafi vəziyyəti tranzit xidmətlərin ixracını inkişaf etdirmək üçün yaxşı perspektivlər nəzərdə tutur. Bu inkişaf mövcud nəqliyyat infrastrukturu və kommunikasiya obyektlərinin genişləndirilməsini və tikintisini davam etdirilməklə yanaşı yeni ixrac kəmərlərinin çəkilişini də nəzərdə tutur (4).

Azərbaycanın infrastruktur sahələrinin inkişafına yönəldilmiş investisiyaların, xüsusilə daxili investisiyaların mövcud həcmi və gələcək görüntüləri belə bir fikir söyləməyə imkan verir ki, yaxın gələcəkdə beynəlxalq xidmətlar üzrə nəzərdə tutulan proqramların həyata keçirilməsi ölkənin beynəlxalq xidmətlərinin nəinki keyfiyyətinin yüksəlməsinə və sayca artmasına, həm də xidmətlərə çoxsahəli xarakter verilmasina imkan yaradacaqdır (5).

- Müstəqilliyimizin ilk illərində DTS-nə inteqrasiya üzrə cari əməliyyatların mənfi saldosu (kəsiri) ölkə iqtisadiyyatının ümumi xərclərinin ümumi gəlirlərindən çox olmasının naticəsi ilə bağlı olmuşdur. Buna görə də 2000-ci ildən başlayaraq Azərbaycan ixracatına çoxsahəli xarakter verilməyə və idxalı əvəz edən istehsalatların inkişaf etdirilməsi üzrə müvafiq dövlət siyasəti həyata keçirilməyə başlanmışdır. Nəticədə xarici sektorun sabitliyi təmin olunmuş, strateji valyuta ehtiyatları artmağa başlamış və ölkə iqtisadiyyatının DTS-ə inteqrasiyası sürətlənmişdir (6).
- Xarici ticarətin sərbəstləşdirilməsi və xarici kapitalın hərəkəti üzərində məhdudiyyətlərin olmaması respublikaya investisiyaların cəlb edilməsinin əsas şərtlərindən biri olmuşdur. Bu da həm milli iqtisadiyyatın DTS-də mövqeyinin gücləndirilməsinə şərait yaratmış, həm də ölkənin tədiyə balansının sabitliyinin təmin olunmasını şərtləndirmişdir. Bunun da nəticəsində cari əməliyyatlar üzrə ümumi göstəricilərin mənfi saldosu 2005-ci ildən müsbət saldo ilə əvazlənərək hər il dayanaqlı olaraq artmağa başlamış və strateji valyuta ehtiyatları yüksək templə çoxalaraq 50 mlrd. doll. Ötmüşdür (7).
- Xəzər şelfi yataqlarından istifadə edilməsi və nəql üzrə ixrac boru kəmərlərinin istifadəyə verilməsi ilə əlaqədar neft-qaz ixracatının nəzərdən keçirilən dövrdə intensivləşməsi nəticəsində obyektiv olaraq gələcəkdə də ixracatın ümumi həcmində neft və qaz məhsullarının payının yüksək səviyyədə qalacağını şərtləndirir. İxracatın bu məhsullara olan təlabatda və onların dünya bazarındakı qiymətlərin dayişikliklərdən asılılığına baxmayaraq neft-qaz ixracatının fiziki həcmlərinin dinamik artımı gəlirlərin çoxalmasına şərait yaratmışdır (8). Eyni zamanda karbohdrogenlərin dünya qiymətlərinin azalması ilə bağlı asılılıqdan yaxa qurtarmaq üçün müvafiq dövlət proqramı çərçivəsində ixracata çoxsahəli xarakter verilmiş və bu tendensiyanın gələcəkdə də davam etdirilməsi prioritet istiqamət olaraq qalacaqdır.

- Xarici maliyyələşdirmədə üstünlüyü müsbət amil kimi qəbul edilən birbaşa investisiyalaşdırmaya üstünlük verilmiş, 1995-ci ildən başlayaraq neft-qaz sektoruna böyük xarici kapital qoyuluşları başlamış və artıq 2000-ci ildan başlayaraq xarici investorların mənfəətindən ayırmaları və onların qarşısındakı öhdəliklərin geri qaytarılmasına başlanmışdır. Yalnız son 10 ildə 55 mlrd. doll. vəsait qeyri-rezidentlərə qaytarılmışdır. Bu isə Azərbaycanın etibarlı tərəfdaş olduğunun ayani sübutudur (9).
- Azərbaycanın 20 illik kredit siyasəti tarixinin 1-ci 10 illiyi xaricdan birbaşa investisiyaların va uzunmüddətli güzəştli kreditlərin cəlb edilməsi ilə bağlı olmuşdur. Bu tarixin 2-ci 10 illiyini saciyələndirən əsas amil isə ondan ibaratdir ki, ölkədən xaricə maliyyə axınları artmağa başlamışdır. Bunlar aşağıdakılardır:
- Xaricdən cəlb olunmuş kapitalın (əsas borcların) geri qaytarılması (reportiasiyası) və qeyri-rezidentlərin gəlirlərinin öəanilməsi;
- Azərbaycan kapitalının xarici ölkələrda yerlaşdirilməsi.
- DTS-ə inteqrasiya üzrə cari amaliyyatların və BKB-ə inteqrasiyanın mövcud vəziyyətinin təhlili və Tədiyə balansının perspektiv görüntüləri belə qənaətə gəlməyə əsas verir ki, milli iqtisadiyyatın ortamüddətli inkişafı əsas etibarı ilə aşağıdakı amillərlə bağlı olacaq:
- ixracyönümlü istehsalın və strateji valyuta ehtiyatlarının artırılması;
- investisiyalaşdırma siyasətinin davam etdirilməsi və milli valyutanın məzənnəsinin sabit saxlanılması (10).

## Ədəbiyyat

1. R.T.Həsənov. İqtisadi siyəsat: metodologiya va praktika, dərs vəsaiti, İqtisad Universiteti nəşriyyatı, Bakı 2009, 282 səh.
2. R.T.Həsənov. Azərbaycan Respublikasının sosial iqtisadi inkişafının bazar modelinin konseptual asasları, Bakı, 343 səh.
3. Ə.Həsənov. Müasir Beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Dərslik, Bakı, 2005.
4. İ. Kərimli. Beynəlxalq iqtisadi münasibətlərin müasir problemləri, Bakı, 2006.
5. A.Ş.Şəkərəliyev. Dövlətin iqtisadi siyasəti: Dayanıqlı va davamlı inkişafın təntənəsi, monoqrafiya, İqtisad Universiteti naşriyyatı, Bakı 2011, 542 səh.
6. A.Abdullayev. İqtisadiyyat və iqtisadi siyasət, Bakı 2003, 227 səh.
7. E.M.Hacızada. Azərbaycan iqtisadiyyatının dünyadakı reytinqi, Bakı, Elm nəşriyyatı, 2011, 128 səh.
8. J.Stiqlis Qloballaşma və onun doğurduğu narazılıqlar, Bakı 2004.
9. Azərbaycan Respublikasının Mərkəzi Bankı, 1994-2014-cü illər üzrə Azarbaycan Respublikasının Tədiyə Balansları, www.nba.az
10. Azarbaycanın statistik göstəriciləri, 2002-2014 cü illər, Bakı: "Səda"

## Tasks and directions of improving the currency policy of Azerbaijan in modern conditions

**Summary**

At the current stage of development of the world, capital inflows play a key role in national and regional economic life. Although the developed world has moved away from floating exchange rates to maneuver in international financial and capital markets, exchange rate policy has kept in touch with this market. Such a situation is one of the factors that determine the negative aspects of the current economic development of the world, primarily the financial sector. The state is the main subject of monetary policy. It determines the strategy of the main directions of development of currency relations for the future, tactics of activity for the forthcoming period, means and ways to achieve economic issues. Monetary policy is an important part of economic policy and is aimed at achieving its multilateral goals, is ensuring sustainable economic development, halting the growth of unemployment and inflation, and maintaining the balance of payments.

## Задачи и направления совершенствования валютной политики Азербайджана в современных условиях

**Резюме**

На современном этапе развития мира приток капитала играет ключевую роль в национальной и региональной экономической жизни. Хотя развитый мир перешел от плавающих обменных курсов к маневрированию на международных финансовых рынках и рынках капитала, политика обменных курсов поддерживала связь с этим рынком. Такая ситуация является одним из факторов, определяющих негативные аспекты текущего экономического развития мира, прежде всего финансового сектора. Государство является основным субъектом денежно-кредитной политики. Он определяет стратегию основных направлений развития валютных отношений на будущее, тактику деятельности на предстоящий период, средства и пути решения экономических вопросов. Денежно-

кредитная политика является важной частью экономической политики и направлена на достижение ее многосторонних целей, то есть обеспечения устойчивого экономического развития, прекращения роста безработицы и инфляции и поддержания платежного баланса.

**Rəyçi: prof. Ş.Qasımov**

Göndərilib: 14.05.2020 Qəbul edilib: 16.05.2020